Davud Mamedov
Accounting, Financial Advisory
+994 12 404 8548
mail@davudmamedov.com
AZ1065, J.Jabbarli 44, Caspian Plaza, 16-th floor

# Müstəqil auditorun hesabatı

"Maybo" MMC-in səhmdarlarına və rəhbərliyinə

## Rəy

Biz "Maybo" MMC-in (bundan sonra "Qrup") 31 dekabr 2025-ci il tarixinə konsolidə maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə bitən il üzrə konsolidə mənfəət və ya zərər və digər ümumi gəlir, konsolidə kapitalda dəyişikliklər və konsolidə pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə mühüm mühasibat uçotu siyasətləri daxil olmaqla qeydlərdən ibarət olan konsolidə maliyyə hesabatlarını n auditini apardıq.

Bizim fikrimizcə, əlavə olunmuş konsolidə maliyyə hesabatları 31 dekabr 2025-ci il tarixinə Qrupun maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələrini və pul hərəkətini Konsolidə maliyyə hesabatlarını n Beynəlxalq Standartlarına (“MHBS”) uyğun olaraq bütün əhəmiyyətli aspektlər üzrə düzgün əks etdirir.

## Rəy üçün əsas

Biz auditi Beynəlxalq Audit Standartları ("BAS") əsasında aparmışıq. Bizim həmin standartlar üzrə öhdəliklərimiz hesabatımızın “Auditorun konsolidə maliyyə hesabatlarını n auditi üzrə məsuliyyəti” bölməsində təsvir olunur. Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının “Peşəkar mühasiblərin etika məcəlləsinə (Beynəlxalq Müstəqillik Standartları daxil olmaqla) (“MBESŞ Məcəlləsi”) uyğun olaraq biz Qrupdan müstəqillik və MBESŞ Məcəlləsinə uyğun olaraq etika ilə bağlı digər öhdəliklərimizi yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu rəyin bildirilməsi üçün yetərli və uyğun əsası təmin edir.

Davud Mamedov
Accounting, Financial Advisory

+994 12 404 8548
mail@davudmamedov.com
AZ1065, J.Jabbarli 44, Caspian Plaza, 16-th floor

**Rəhbərliyin və idarəetmə səlahiyyətləri olan şəxslərin maliyyə hesabatlarına dair məsuliyyəti**

Rəhbərlik konsolidə maliyyə hesabatlarını n MHBS-na uyğun hazırlanması və düzgün təqdim edilməsi, həmçinin saxtakarlıq və ya səhv nəticəsində yaranan əhəmiyyətli təhriflərin olmadığı konsolidə maliyyə hesabatlarını n hazırlanması üçün zəruri saydığı daxili nəzarətə görə məsuliyyət daşıyır.

Konsolidə maliyyə hesabatlarını hazırlayarkən, rəhbərlik Qrupu ləğv etmək və ya fəaliyyətini dayandırmaq niyyətində olduğu və ya bunu etməkdən başqa heç bir real alternativi olmadığı hallar istisna olmaqla, Qrupun fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsizliklə bağlı məsələlərin açıqlanmasına və mühasibat uçotunu fasiləsizlik prinsipi əsasında aparmasına görə məsuliyyət daşıyır.

İdarəetmə səlahiyyətləri olan şəxslər Qrupun maliyyə hesabatlılığı prosesinə nəzarət edir.

**Konsolidə maliyyə hesabatlarını n auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz bütövlükdə konsolidə maliyyə hesabatlarında saxtakarlıq və ya səhv nəticəsində yarana biləcək əhəmiyyətli təhriflərin olmamasına dair yetərli əminlik əldə etmək və auditorun hesabatında bu barədə rəy bildirməkdir. Yetərli əminlik əminliyin yüksək dərəcəsini ifadə edir, lakin BAS-a uyğun olaraq aparılmış audit nəticəsində mövcud olan bütün təhriflərin üzə çıxarılmasına zəmanət vermir. Təhriflər saxtakarlıq və ya səhv nəticəsində yarana bilər və fərdi ya məcmu olaraq istifadəçilərin konsolidə maliyyə hesabatlarını n əsasında qəbul edəcəyi iqtisadi qərarlara təsir göstərmək ehtimalı olduğu halda əhəmiyyətli sayılır.

Aparılmış audit və onun nəticəsində təqdim edilmiş bu audit hesabatı üzrə məsuliyyət daşıyan auditor Davud Məmmədovdur.

25 İyun 2026

Bakı, Azərbaycan

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti Davud Mamedov Mühasibatlıq və Maliyyə Məsləhətçiliyi